Teymur Əhmədov – 90

Böyük alim-vətəndaş

Erməni faşizminə qarşı hərbi əməliyyatların başladığı 27 sentyabrın səhəri Akademiyada şöbəyə gəldim və qonşu stolun üstündə "Respublika" qəzetinin təzə nömrəsini gördüm: birinci səhifədə Prezidentin, Ordumuzun Ali Baş Komandanı İlham Əliyevin hərbi geyimdə ayaq üstə böyük şəkli verilmişdi. Nömrənin qalan beş səhifəsinin başında isə Qələbə ovqatı yaradan çağırışlar oxudum. Onlardan biri belə idi: "Biz öz torpaqlarımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğaldan azad edəcəyik". Bu qəzetin 90 yaşlı Baş redaktoru Teymur Əhmədovun üslubu və mövqeyi idi. Torpaqların azad olması uğrunda savaş haqda birinci sayın özü Qələbə müjdəsi idi. Anladım: Teymur müəllimin son 30 illik həyatı 27 sentyabrın intizarından ibarət imiş və bu balaca kişidə nə qədər mübarizə və qələbə gücü var ...

Bu güc də onun beynəlxalq münasibətlər tarixinə, xüsusilə, erməni-Azərbaycan konfliktlərinə hərtərəfli bələdliyinə əsaslanırdı. İşğal olunan yeddi rayon – Azərbaycanın hərbi məğlubiyyətinin nəticəsi deyildi: faktiki olaraq bu rayonlar təhvil verilən günlərdə hər kəndə bir itki, şəhid belə düşmürdü. Bakıda hakimiyyətin iflic edilməsi hərbi müdafiənin təşkilinə yer qoymurdu. Ermənilər isə tarixi fürsət yarandığını görür və Azərbaycandan qovulan 4-cü Sovet ordusunun tör-töküntülərinin əli ilə rayonlarımızı işğal edirdilər, əslində isə müdafiəsiz qalmış kənd əhalisini öz evlərindən qovurdular. Bu işin səksən faizini muzdla ermənilərə xidmət edən rus hərbçiləri edirdilər.

Bunları müşahidə edən Teymur Əhmədov bir şeyi apaydın bilirdi: ermənilərin rus süngüsü ilə Azərbaycan Respublikası ərazisində ikinci erməni dövləti qurmaqları sərsəm bir ideya idi. Dövlətləri xalqlar yaradır, amma muzdlu rus süngüsü ilə erməni Qarabağ dövləti yaratmaq tarixdə görünməmiş bir avantüra idi və 44 günlük müharibə nəticəsində erməni xalqının şərəfini ayaq altına salan bir sonluqla bitdi. Ermənistan dövlətinin son 30 ili puç oldu, havaya sovruldu. Bu işğalçılıq xülyalarının dağılması idi. Teymur Əhmədov bunu gözləmişdi, çünki kim bilməsə də, o bilirdi ki, Cənubi Qafqazda erməni adlı heç bir siyasi qüvvə yoxdur. Erməni problemi xristian dövlətlərinin Qafqazdakı xarici siyasətinin çoxbaşlı alətidir. Bu alət böyük xristian dövlətlərinə lazım olmayan kimi məhv olacaqdır, erməni mifi yox olacaqdır. Və Prezidentimizin və ordumuzun qətiyyəti sayəsində 44 gündə gerçəkləşdi. Bir də ona görə yox oldu ki, erməni dövləti Qərblə Rusiya arasındakı boğuşmada öz yerini itirdi, erməni sifətsizliyi onların dövlətinə öldürücü zərbə vurdu. Rusiyanın Ermənistandan qovulması vaxt məsələsidir. Erməni probleminin həlli də həmin vaxtdan sayılacaq. Moskvada gümən edirlər ki, Qarabağdakı Rusiya hərbi qüvvələri Gümrüdəki hərbi bazanı əvəz edəcəkdir. NATO üzvü olan Türkiyənin Qarabağda baza yaratması, əslində, böyük xristian dövlətlərin Ermənistanın sıfırlanmasına verdiyi hökmdür. Müharibənin Sülh müqaviləsində təsdiqlənmiş əsas nəticəsi də budur. Rusiya Qafqazda heç kimə lazım deyildir, üstəlik, NATO blokuna mane olur. Türkiyə yüz illik fasilədən sonra Qafqaza qayıdır və bunu öz ərazisi ilə quru yolu ilə birləşdirir. Bu, İkinci Dünya müharibəsindən sonra yeni dünya bölgüsünün faktidır artıq. Teymur Əhmədov xalqımızın nüfuzlu ağsaqqalı kimi təbrik etmək olar! Çünki onun həyatı həm də bu Qələbəyə gedən yoldur, bu qələbə üçün gündəlik və fasiləsiz mübarizədir.

Teymur Əhmədov əslən irəvanlı olsa da, Şəmkirdə doğulub, amma orta təhsilini İrəvan şəhərində, ali təhsilini Bakıda Dövlət Universitetində alıb, orada ermənicə öyrənib və "Sovet Ermənistanı" qəzetində jurnalistik işə başlayıb. Onun bütün sonrakı həyatının əsas mücadiləsi həm də xalqımıza qənim kəsilən erməni fitnəkarlığına qarşı mübarizə olub. Uğurlu mübarizə olub, çünki Teymur müəllim erməni faşizmini içəridən bilən mütəxəssislərdəndi. 1988-ci ildən ermənilərin bizə qarşı işğalçılıq planları açıq təbliğ olunmağa başlayandan Teymur Əhmədov erməni təbliğatına qarşı mübarizənin ön xəttində göründü. Özü bu barədə yazmaqla kifayətlənmədi, "Vətən səsi" qəzetini yaradaraq, Ermənistanda qalmış Zəngəzur və digər ərazilərin məsələsini qaldırdı. Saysız-hesabsız qaçqının problemləri ilə məşğul oldu, nə yoruldu, nə usandı.

Çünki xristian dövlətləri ermənilərin ərazi iddialarını himayə edirdi, amma müsəlmanların Ermənistanda itirdiklərini qulaq ardına vururdular. Belə şəraitdə Ermənistandan qovulan yüz minlərlə Azərbaycanlının mülkiyyət hüquqlarını müdafiə etmək böyük milli iş idi. Ermənilər Bakıdan və digər rayonlardakı torpaqlardan gedəndə bir qayda olaraq öz evlərini satır və ya dəyişdirdilər, Moskvadan bela köçən ermənilərin mülkiyyət hüququ himayə edilirdi. Belə bir vaxtda Teymur Əhmədovun redaktə etdiyi qəzetlər azərbaycanlıların mülkiyyət hüququ məsələsini, itirdiyi qədim torpaqlarını beynəlxalq müstəviyə çıxarırdı. Bu yolda onun nüfuzlu həmfikirləri də vardı və biz bu gün onlara minnətdarıq və sayırıq ki, bu mübarizə erməni dövləti yox olanacan aktual olacaq.

Xalqımızın taleyüklü problemləri ortaya gələndə Teymur müəllim həmişə fəal olub. Bu, onun taleyi ilə bağlı bir məsələdir. O, ədəbiyyatımızın araşdırıcısı peşəsini seçən kimi, milli taleyimizin iki fundamental siması ilə üz-üzə oldu: Nəriman Nərimanov və Mirzə İbrahimov. SSRİ-nin dağılma dövründə isə taleyinin üçüncü cəbhəsini tapdı: Azərbaycanı qorumaq uğrunda Heydər Əliyev mücadiləsinə qoşuldu. Xalqın taleyi ilə Azərbaycan ədəbiyyatının amalları birləşdi.

Teymur Əhmədov bir ədəbiyyatçı olaraq qalmadı, Heydər Əliyev məktəbinə məxsus sağlam bir dövlətçi və vətəndaş kimi özünü təsdiq etdi. Buna görə də 25 il əvvəl ulu öndər sınanmış silahdaşını "Respublika" qəzetinə redaktor təyin etdi. Ölkədə sənaye və nəqliyyatın inkişaf problemlərini işıqlandıran bu qəzet bu illərdə iqtisadiyyatımızın inkişafına, Heydər Əliyevin siyasi kursunun davam etdirilməsinə yorulmadan xidmət edir. Obyektivlik və sosial ədalət prinsipləri qəzetin hər nömrəsində xalqımıza, insanların problemlərinin həllinə kömək edir. Qəzet xalqın ağrı-acıları, insanların ədalət axtarışları üçün həmişə açıqdır. Teymur müəllimin şəxsi mövqeyi sayəsində "Respublika" qəzeti bu illərdə bizim ziyalıların, ədib və sənət adamlarının səsini və sözünü xalqa çatdıran bir tribunadır. Qəzet milli dəyərlərimizin, dövlətimizin, mədəniyyət və əxlaqımızın keşiyindədir. Teymur müəllim özündən yuxarıda və aşağıda gedən məmur didişmələrindən həmişə yüksəkdədir, dövlətin və xalqın gerçək ehtiyacları onun üçün qəzetçilik amalıdır. Qəzet dövləti və cəmiyyəti narahat edən heç bir problemdən kənarda qalmır, öz əsaslı-sübutlu mövqeyi ilə oxucularına və ictimai rəyə doğru istiqamətlər göstərir. Qəzetin hər nömrəsində cəmiyyətin və xalqın nəbzi vurur.

Belə bir qəzet redaktoru milli tariximizin böyük dərsləri üzərində yetişmişdir. Nəriman Nərimanov 1961-ci ildən gənc Teymur Əhmədovun namizədlik işinin mövzusu oldu, Mirzə İbrahimov isə onun elmi rəhbəri. Nərimanov cəmi dörd il qabaq, 1956-cı ildə Moskva tərəfindən "millətçi" siyahısından çıxarılmışdı. Lakin bu, Nərimanova məhəbbətdən gəlmirdi, mərkəzdə İ.Stalinin nüfuzuna qarşı mübarizə gedirdi. Ona görə Nərimanova bir maarifçi və yazıçı kimi bərəət verilmişdi, siyasətçi Nərimanovdan isə söhbət gedə bilməzdi. Otuz yaşlı Teymur Əhmədov belə çoxmərtəbəli intriqaların içinə düşmüşdü. O qorxmadı, amma ehtiyatı da əldən vermədi. Bir də dağ kimi, tükü-tükdən seçən Mirzə İbrahimov kimi elmi rəhbəri vardı.

Teymur Əhmədov 1961-ci ildə İrəvandan Bakıya akademiyada aspiranturaya qəbul üçün gəlmişdi. N.Nərimanovun yaxın silahdaşları 1937-ci ildə güllələnsə də, humanitar və texniki ziyalılar arasında onun çoxlu tərəfdarları, tələbə və davamçıları vardı. Onlar Teymur Əhmədova "Nəriman Nərimanovun dramaturgiyası" mövzusunu təklif etdilər. Təklif bəh-bəhlə keçdi, amma elmi rəhbər məsələsi dolaşığa düşdü. Dissertasiyanı erməni-rus senzurasından keçirə bilən bir adam lazım idi. Axırda Moskvada da sözükeçən Mirzə İbrahimovun üstündə dayandılar. Bu zaman artıq Mirzə müəllim 1958-ci ildə Azərbaycan dilinə dövlət dili statusu vermək cəhdinə görə təşkilatçı qismində bütün dövlət vəzifələrindən çıxarılmışdı. Akademiyanın vitse-prezidenti və XX əsr ədəbiyyatı şöbəsinin müdiri idi. İrəvandan gələn professor, "Respublika" qəzetinin bugünkü Baş redaktoru Teymur Əhmədov idi. Mirzə müəllimin ilk aspirantı "Nəriman Nərimanovun dramaturgiyası" mövzusunda namizədlik işini 1966-cı ildə İsmailiyyə binasının üçüncü mərtəbəsindəki səhnəli zalda müdafiə etmişdir. İnqilabdan qabaq və sonra bu zal teatr səhnəsi kimi də istifadə olunurdu. O zaman müdafiələr barədə qəzetlərdə elanlar verilirdi. Teymur Əhmədov müdafiə zalına girəndə heyran qalmışdı: minə yaxın yeri olan zalda iynə atmağa yer yox idi. Bunların kimliyini o, sonralar anladı: gələnlər N.Nərimanovun sadiq tələbələri və tərəfdarları idilər. Bu, N.Nərimanovun xalqı idi, o, pərvanə kimi bu xalq üçün özünü qurban vermişdi. Görünür, N.Nərimanovun ermənilərdən başqa da əleyhdarları gələcəkdə də olacaq. Amma tərəfdarları, xalqı da həmişə olacaq, onların içində Mirzə İbrahimovlar, Heydər Əliyevlər, Çingiz Hüseynovlar, Teymur Əhmədovlar da həmişə olacaq.

Aydındır ki, Mirzə İbrahimov yaşca N.Nərimanova düşmən münasibətdə olan, M.S.Ordubadi demiş "cavan" Azərbaycan bolşevikləri nəslinə aid idi. Bu "cavanları" (R.Axundov, Ç.İldırım, H.Sultanov, M.C.Bağırov və s.) Moskva məmurları və ermənilərin ittifaqı bilərəkdən N.Nərimanova qarşı yönəldirdi və 1922-ci ilin dekabrında məhz onların köməyilə N.Nərimanovu Moskvaya sürgün edə bildilər. N.Nərimanov Azərbaycanda yerli millətçiliyin rəmzi kimi pislənməyə başladı. Böyük Vətən müharibəsinə qədər millətçilik sovetləşmənin əsas rəqibi sayılırdı. Amma müharibə xırda xalqların belə milli hisslərini faşizmə müqavimətin əsas silahına çevirdi. XX partiya qurultayından sonra, proletkult dövründə ziyanlı sayılan milli ədiblər və kitablar bərəət alanda Mirzə İbrahimov MK Bürosunun üzvü idi və Pişəvərinin Milli Hökumət kürəsində yanıb çıxmışdı.



Büroda bu şəxslər və əsərlər adbaad müzakirə olunur və hər biri haqqında ayrıca qərarlar verilirdi. Lakin N.Nərimanov qorxulu məsələ idi: icazələr Moskvada təsdiqdən keçirdi. N.Nərimanov hələ 1922-ci ildə Moskvaya yazdığı məktublarında heç kəsdən qorxmadan Bakıda müsəlmanlara qarşı "rus-erməni" ittifaqından yazırdı.

Mirzə İbrahimov sələfi Nəriman Nərimanovun fəaliyyəti ilə o zaman yaxından məşğul olmamışdı. Amma Büroda onun səsi və sözü bu məsələlərdə həlledici idi. O zaman Nərimanovun "Dram əsərləri"nin çapı məsləhət bilinmiş və qadağan olunmuş fonddan adı silinmişdi. Amma 1950-ci illərin ortalarında hazırlanan "Azərbaycan tarixi", "Azərbaycan Kommunist partiyasının tarixi" kimi mühüm nəşrlərdə N.Nərimanov məsələsi Bakı, Moskva və ermənilər arasında mübarizələrin əsas nöqtəsi idi. Moskva və ermənilər N.Nərimanovun ancaq müəllim və marifçi kimi təqdiminə razı olurdular, hətta Azərbaycan kommunist partiyasının müstəqilliyini belə qəbul etmək istəmirdilər.

Azərbaycanda N.Nərimanov fenomenini araşdırıb üzə çıxaran adamların birinci ardıcılı professor Teymur Əhmədovdur və buna görə biz ona minnətdar olmalıyıq. Düzdür, ondan sonra saxtakar partiya tarixçiləri də bu işə qoşulub akademik oldular. Amma onlar şaum-yanizmin sifarişlərini yerinə yetirirdilər. Teymur Əhmədov isə 1920-ci illərin əvvəllərindən, hələ öz sağlığında millətçi damğası vurulan N.Nərimanovun ancaq ən yaxşı əməllərini, böyük bədii irsini xalqımıza qaytarmaq istəyirdi. Professor Teymur Əhmədov böyük ədib haqqında məhəbbətlə yazır. Onun milli tərəqqi arzuları yolunda mübarizələrini xırda faktlarına qədər üzə çıxarır. Alim bu araşdırma üsulunda çox haqlıdır: N.Nərimanovun bədii irsi bizim burjua maarifçiliyinin böyük abidələridir. Bu abidələrin hər sətri xalqımıza, onun işığa çıxmaq arzularına xidmət ehtirasları ilə doludur. Bu ehtirasların səmimiliyinə heç bir şübhə ola bilməz. N.Nərimanov bizi feodal asılı olamadan tarixi hadisələrdə iştirak etməli olmuşdu. Lakin Teymur Əhmədov N.Nərimanovun Azərbaycan dövlətçiliyi tarixindəki yaxşı, taleyüklü işlərini önə çəkir, bu böyük şəxsiyyətin dövlətçilik tariximizdə şəksiz xidmətlərini gəncliyə öyrətməyə çalışır.

Teymur Əhmədov bir tədqiqatçı və ədəbiyyatşünas kimi öz məxsusi üslubuna malikdir. Bu üslub onun tədqiqatlarında özünü büruzə verdiyi kimi, kitablarında da aşkar şəkildə ifadəsini tapır. Teymur müəllim Azərbaycan ədəbiyyatını bütün varlığı ilə sevən, onun ən xırda faktlarına belə xüsusi əhəmiyyət verən bir alimdir. Buna görə də onun bir sıra kitabları həm tədqiqat materialları, həm də faktik ədəbi materiallarla zəngindir. Hətta yorulmaz alim klassiklərimizə həsr olunmuş foto-albomlar da buraxmışdır ki, bu, onun ədəbiyyatın bütün faktlarına – məktublara, şəkillərə, fotolara, xatirə elementlərinə xüsusi əhəmiyyət verdiyini göstərir. Bu üslub müxtəlifliyi onun yarım əsrdən artıq bir dövrdə buraxdığı kitablarda da müşahidə olunur. Bu kitablarda məqalələrlə, tədqiqatlarla yanaşı, müxtəlif ədiblərin həyat və yaradıcılığına həsr olunmuş nadir fotoşəkillərə, son dərəcə maraqlı məktublara da rast gəlirik. Bu, alimin kitablarını elmi üslubca zənginləşməklə qalmır, üstəlik, müxtəlif üslublu kitabların yaranmasına səbəb olur. Teymur Əhmədov foto-albomlar da buraxmışdır. Çox az adam bilir ki, peşəkar fotoqraflıq və foto arxiv yaratmağa həvəs bu günəcən onun jurnalistlik fəaliyyətinin ayrılmaz hissəsidir. Onun bu gün yaşadığı ev də, sözün əsl mənasında, həm də foto və kitab arxividir. Bunu "Respublika" qəzetinin bugünkü saylarında da görmək olar.

Yorulmaz alimin Mirzə İbrahimovun 90 illiyi münasibətilə buraxdığı "Mirzə İbrahimov" (Nurlar, 2001) kitabının üz qabığının arxa tərəfində Mirzə İbrahimovun üzünün silueti əks olunmuşdur. Bu siluetin altında Mirzə İbrahimovun imzası vardır. Bu imza şəklin avtoportret janrına məxsus olduğunu və Mirzə müəllimin öz qələmi ilə çəkildiyinin təsdiqidir. Bir vaxtlar birgə işlədiyimiz EA XIX və XX əsrlər Cənubi Azərbaycan ədəbiyyatı tarixi şöbəsində iş yoldaşlarımızdan birinin çıxışına qulaq asarkən çəkmişdir. Həmin sarı vəreq Teymur Əhmədov tərəfindən götürülərək qiymətli bir sənəd kimi saxlanmış və kitabın tərtibində istifadə edilmişdir. Bu, alimin ədəbi, bədii və elmi faktlara münasibətinin xırda bir nümunəsidir.

Teymur Əhmədov öz məqalə və kitablarında Mirzə müəllimi böyük azərbaycançı kimi təqdim edir. Bu böyük şəxsiyyətə xırdalıq, subyektivizm, cılız yerliçilik hissələri yad idi. Vəzifələrdə olarkən onun qolundan tutduğu, irəli çəkdiyi insanların da böyük əksəriyyəti xalqımız üçün faydalı insanlar oldular, əsl azərbaycançılar, həqiqi mənada vətəndaş, xalqın xidmətçiləri oldular. Teymur Əhmədovun özü də belə adamlardan biridir və öz böyük müəlliminin mənəvi prinsiplərini davam etdirir.

Təsadüfi deyil ki, zəhmətkeş ədəbiyyatşünas Teymur Əhmədov öz müəllimi haqqında dörd kitab buraxıb. Bu sıradan birinci kitabı xatırladıq: Mirzə müəllimin 90 illik yubileyi münasibətilə 2001-ci ildə işıq üzü görüb. Lakin bu kitabda Teymur Əhmədovun topladığı materialların hamısı yer ala bilmədi. Ona görə də bir il sonra – 2002-ci ildə "Mirzə İbrahimov haqqında xatirələr" kitabı meydana çıxdı. Ensiklopedik xarakter daşıyan bu kitabdakı xatirələrin əksəriyyəti Teymur Əhmədovun öz təşəbbüsü ilə yazılmışdı və ən mötəbər avtoqraf mənbə xarakteri daşıyırdı. Sovetlər dağılandan on il sonra çıxan bu iki kitab Mirzə İbrahimovun sovet qəliblərindən təmiz ilk ədəbi obrazı və bioqrafiyası sayıla bilərdi, çünki hamı Mirzə müəllimi tanıdığı və qəbul etdiyi kimi yazmışdı. Bu sətirlərin müəllifi də həmin kitabda yazıçı barədə öz xatirələrini prinsipial şəkildə yazmışdı. Nəhayət, ədibin 100 illiyi ilə bağlı Teymur Əhmədovun daha bir araşdırması işıq üzü gördü: bu, "Mirzə İbrahimov" adlı (Nurlar, 2014) izahlı kitab-albom idi. Burada ədibin həyat və fəaliyyətini əks edən şəkillər dəqiq izahlar, ədib haqqında qıymətli sözlərlə müşayiət olunur. Bu kitabda professor Teymur Əhmədovun genişmiqyaslı faktik materialı işləmək və ümumiləşdirmək bacarığı, unikal elmi hafizəsi, sənədləri seçib qiymətləndirmək bacarığı yenidən parlaq şəkildə özünü göstərdi.

Teymur Əhmədov 45 ilə yaxındır ki, Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsi ilə bağlıdır. Mirzə İbrahimovun rəhbərliyi ilə və ondan sonra şöbədə həyata keçirilən bütün elmi layihələrin əsas müəlliflərindən olmuşdur. Bu şöbə artıq Azərbaycan ədəbiyyatşünaslığının müstəqil bir qoluna çevrilmişdir. Onun rəhbərliyi ilə Cənubi Azərbaycan Ədəbiyyatı tarixinin iki cildi müvafiq olaraq 2009-cu və 2013-cü illərdə akademik səliqə ilə çap olunmuşdur. Alimin bu sahədəki fəaliyyəti ayrıca bir yazının mövzusudur.

Teymur Əhmədov həqiqi bir Azərbaycan ziyalısıdır: onun üçün xalqımız, adamlarımız kəndlərə və məhəllələrə bölünmür. Bu cəhətdən o, bizim böyük maarifçilərin davamçısıdır, bizim hamımızın müəllimimizdir. Sevinirik ki, tarixi Qələbəmiz də, bu zəfərimiz də bu birliyə söykəndi, onu təsdiq etdi, sanki xalqımız və dövlətimiz bu qələbədən yenidən doğuldu. Çətinlik və tənbəllik gələndə mən hər dəfə Teymur müəllimi xatırlayıram, onun kimi olmağa çalışıram. Onun qapısı həmişə açıqdır. Qapısına gələnlərin heç birinə köməyini əsirgəmir. O, bir məktəbdir, əməlpərvərlik və imdad nümunəsidir. Allah onun iradəsinə əbədi bir cavanlıq bəxş edib. Bu elə Qələbəmizin qüvvə mənbəyi olan xalq enerjisinin təzahürdür.

Teymur Əhmədovun xarakterinin başlıca cizgisini mən qədirbilənlik adlandırardım. O, Nərimanovun, Mirzə İbrahimovun, Heydər Əliyevin həqiqi qədirşünasıdır. Amma təkcə böyük şəxsiyyətlərin deyil, cavanlıq dostlarının da qədrini bilir. Qohumlarını, Nazim Rizvan, Zahid Əkbərov və b. kimi onlarca iş yoldaşlarını da unutmur heç vaxt. Hər vaxt kabinetinə getsən söhbətcil gənclik dostlarından bir-ikisini görəcəksən. Teymur müəllim onların hamısına hövsələ ilə qulaq asır, diqqət göstərir. Dostum və müəllimim Teymur Əhmədovu ucaldan əsas amillərdən biri bu keyfiyyətidir.

Balkə də Teymur Əhmədov gündəlik qəzetin dünyada 90 yaşlı yeganə baş redaktorudur. Ulu öndərin yadigarıdır. Bu dünyada ən qalib şey – böyük işlər və layihələr ortaya qoyan insan iradəsidir. Teymur müəllim də bir gənc kimi, hər gün yeni bir nəğmə, hər gün yeni bir ilhamla yaşayır və öz tələbələrini yorulmazlığı ilə heyran qoyur, yol və nümunə göstərir. Bu günlər həm də Teymur müəllimin qalib iradə günləridir. Allah ona çoxlu cansağlığı versin! Şair düz deyib: hər kim yüz il yaşamasa, günah onun özündədir!

Rəhim ƏLİYEV,
Filologiya elmləri doktoru